# Daşnak quldurların Qarakilsə soyqırımları

**Qədim türk yurdu Zəngəzur XVIII əsrdən etibarən erməni qriqorian kilsəsinin məkrli niyyətinin təcavüz meydanına çevrilmişdir. Bölgə hay quldur silahlı birləşmələrinin daimi hədəfində olduğundan burada türk-müsəlman əhaliyə qarşı soyqırımları davamlı olmuşdur.**



Sonuncu qətliamlar XX yüzilliyin başlanğıcında və sonunda baş vermiş, nəticədə, 50 min nəfər dinc sakin dini-milli mənsubluğuna görə amansızcasına qətlə yetirilmiş, 245 yaşayış məntəqəsi dağıdılmış, qarət edilərək yandırılmış və yer üzündən silinmişdir. Eyni zamanda, əski tariximizin maddi-mədəni irsi, coğrafi abidələri məhv edilmiş, bir çox nümunələr mənimsənilmişdir.

Qarakilsə nahiyəsi Qərbi Zəngəzurun Biçənək aşırımından Qaragöl yüksəkliyinədək uzanan Salvartı, Səngər, Diboğlu, Çatandaş, Nəhridüz... dağlarını, Əhmədalılar, Məzməzək, Dəliçay, Şəki, Bərgüşadçay dağ çaylarının geniş vadisini əhatə edən, ticarət-karvan yollarının üstündə yerləşən, Qarabağ və Naxçıvan bölgələrini birləşdirən tarixi-coğrafi ərazisinin bir hissəsidir. Zəngin tarixi-maddi irsi, qədim xalq mədəniyyəti, bərəkətli, münbit torpaq və faydalı qazıntı ehtiyatlarının bolluğu nahiyənin iqtisadi-təsərrüfat əhəmiyyətini xeyli dərəcədə yüksəltdiyi üçün, həm də hərbi-siyasi və strateji dəyəri nəzərə alınmaqla Qarakilsə XVIII–XIX əsrlərdə erməni hücumlarının meydanına çevrilmişdir.

Mürtəce hay kilsəsinin fitvası ilə daşnak silahlı quldur birləşmələri bu imkanlardan yararlanmaq məqsədilə 1918-ci il fevral–mart aylarında Cənubi Azərbaycan və Naxçıvan ərazilərindən keçərək Qarakilsə nahiyəsinin kəndlərində də yerli əhaliyə qarşı soyqırımları törətmişlər. Zəngəzur mahalının qərb hissəsində yerləşən Şeyxlər, Comərdli, Ərəfsə, Salvartı, mərkəzi ərazilərdəki Urud, Yaycı, Ağudi, Vağudi, Qarakilsə, şərqdəki Qızılcıq, Sofulu kəndləri XIX əsrin 80–90-cı illərində, XX əsrin əvvəllərində (1904–1907-ci və 1912–1915-ci illərdə) də eyni vəhşiliklərin hədəfi olmuşdu.

Çar Rusiyasında 1917-ci il okyabr çevrilişindən sonra Qafqaz cəbhəsinin əsas əsgər-zabit heyətinə və cəbbəxanalarına yiyələnən hay kilsəsi, onun silahlı dəstələri Qərbi Azərbaycana üç istiqamətdən (Gümrü – Dilican vadisi, Dərələyəz – Vedi– Arpaçay hövzəsi və Oxçuçay – Bazarçay yataqları boyunca) hücum etməklə, bölgənin cənub cinahına – Zəngəzura strateji hədəf kimi daha ağır zərbələr endirmişdir. Quldur daşnakların döyüş qərargahlarından biri də Gorus şəhərində yerləşmişdir.

1918-ci ilin yaz-yay aylarında Naxçıvan və Zəngəzur qəzalarında yaşayan 200 min nəfər türk-müsəlman əhaliyə qarşı soyqırımı faciələrinin törədilməsi barədə kifayət qədər arxiv materialları var. Həmin qanlı hadisələrin şahidlərinin yazıya alınmış xatirələri də az deyil. Qarakilsə nahiyəsinin bir çox kəndləri (ümumilikdə, 31 kənd, o cümlədən, Şöyüblü – Şayıflı, Çuxuryurd, Çullu, Xudayarlı, Kotanarx, Əlili, Xırda Banış) həmin hücumlardan sonra tamamilə dağılmış, yer üzündən silinmişdir.

Belə kəndlərdən biri də Ortadüz kəndi, Naxçıvan mahalının Culfa nahiyəsi ilə sərhədə yaxın, Qarakilsə nahiyəsinin ən ucqar yaşayış məntəqəsi olub. Ümumiyyətlə, 1915–1920-ci illərdə Zəngəzur qəzasının Qarakilsə, Mehri və Qapan nahiyələrinə Q.Nijdenin, A.Ozanyanın amansız hücumlarından canlarını qurtara bilə 50 min nəfərdən çox soydaşımız Naxçıvan qəzasının həmsərhəd kəndlərinə və Naxçıvan şəhərinə pənah gətirmişlər. Qazangöl və Salvartı dağlarının keçilməzlərində Culfa və Şahbuz nahiyələri kəndlərinə getmək istəyənlərin əksəriyyəti dağ yamaclarında donub həlak olmuşlar. Salvartı və Səngər dağlarını aşıb Ərəfsə, Kömür, Keçili, Biçənək, Kolanı kəndlərinə çatan camaatın bir hissəsi sonradan geri qayıtsa da, əksəriyyəti Naxçıvan qəzasında yaşamalı olmuş, bir çoxları sonralar ağır xəstəliklərə düçar olmuşlar.

Bölgə ilə bağlı demoqrafik statistik məlumatların təhlilləri göstərir ki, 1905–1920-ci illərə qədər ümumiyyətlə, Zəngəzur qəzasında, eləcə də Qarakilsə nahiyəsinə XVIII – XIX əsrlərdə köçürülən haylar əhalinin 10–15 faizini təşkil etmişdisə, 1920-ci ildən sonra bu rəqəm artaraq 20– 25 faizə çatmışdır.

Qarakilsə nahiyəsinin Ortadüz kəndinə hücum xəbərini eşidən qonşu Ərəfsə, Comərdli, Şeyxlər, Əlili kəndlərinin camaatı Dağdağan aşırımını və Çatandaş dağını aşaraq Culfa və Şahbuz nahiyələrinə keçmişlər. Culfa nahiyəsinin Ərəfsə kəndinin yaxınlığındakı Xor dərəsi isə qətlə yetirilən və ağır yaralanaraq həlak olanlarla dolu olub. Deyilənə görə, “meyid meyidə söykək imiş”. Qəfil edilən hücumların qarşısını alan kəndin igidlərindən Şəmil və qardaşı Muradxan, Nəsir və Məhəmmədəli ayrı-ayrılıqda düşmənə layiqi zərbələr (60-a qədər quldur yox etməklə) endirmişlər.

Qanlı qırğının şahidlərindən Gülbəstə Mahmud qızı (1889-1979), Məhəmməd Qibləli oğlu (1878-1965) xatırlayırdılar ki, qarlı-sazaqlı fevral-mart aylarında Ortadüz kəndinə cənub yöndəki Çilingər dağı tərəfdən edilən qəfil hücum səhərə yaxın olduğundan salamat qalan az adam oldu. Kənddən 2,5 km aralıdakı, kollu-koslu təpənin üstündə yerləşən XII-XIII əsr Alban məbədinə yığışan camaat bu hissədən keçib Culfa nahiyəsinin kəndlərinə keçmişlər. Onların arasında olanlardan Əbdüləli Nəsir oğlu Musayev (1906-1982), bacısı Əsli (1904-1992) danışırdılar ki, Əhməd Musa oğlu İbrahimovun (1914-2012) əmisi Vəlini quldurlar qılıncdan keçirmişdilər. Hay-daşnak quldur A.Ozanyan amansız qətliamları hündür dağdan müşahidə edirmiş.



Quldurlar camaatı qətlə yetirdikdən, evləri-yurdları yandırdıqdan sonra mal-mülkü olan imkanlı şəxslərin varidatını da qarət edib özləri ilə aparmışlar. Nahiyənin iri kəndlərindən olan 120 evli Ortadüz kəndinin yandırılmış, dağıdılmış, boşaldılmış yurd yerləri göz dağı idi.

XX əsrin əvvəllərində Van, İqdır, Ərzurum mahallarından köçürülən hayların yerləşdirildiyi Təzəkənd sakinləri də 1970-ci illərin əvvəllərində etiraf edirdilər ki, Ortadüz kəndi qalsaydı, indi iri şəhərlərdən biri olacaqdı.

**Qismət YUNUSOĞLU,**
**Bakı Dövlət Universitetinin müəllimi**